***Məmməd Araz***
***Dağlar***

Bahar can gətirdi dərəyə, döşə,
Bəzəndi hər qarış torpağın, dağlar.
Verdi obalara gül-çiçəyini
Gözləri yol çəkən yaylağın, dağlar.

Soyuq bulaqların zümzüməsinə,
Həzin tütək səsi qarışdı yenə.
İnsansız bər-bəzək kəfəndir sənə,
Gəldi insan adlı qonağın, dağlar.

Könlüm ayrılmayır oylaqlarından,
Min yol su içmişəm bulaqlarından,
Sağınçı qızların dodaqlarından,
Duyulur ətirli qaymağın, dağlar.

Canlı şeriyyətdir, bu el, bu elat,
Hər mələyən quzu, hər kişnəyən at,
Qurulur qoynunda min toy, min büsat
Qəlbə can verir, bu çağın, dağlar.

Odur bir-birindən yenə aralı
Sürülər otlayır, ağlı, qaralı.
Hüsnündən doymayır şair xəyalı,
Nə qədər gözəldir o çağın, dağlar.

1955

***Araz M. Dağlar // Vətən deyin. – Bakı: Adiloğlu, 2003. – S. 134-135.***

***Məmməd Araz***
***Dağlar***

Bahar gəldi, göy sinənə
Lalə, nərgiz yay, a dağlar!
Yenə laylı buludlardan
Öz tacını qoy, a dağlar!
Coşur suyun, selin səsi,
Qız nəğməsi, gəlin səsi,
Yenə gəldi elin səsi –
Xoş gününü say, a dağlar!
Bax o ağlı, o qaralı
Sürülər də tutub yalı.
El dağında elin malı...
Duy şair tək, duy, a dağlar!
Döşdə tütək zümzümələr...
Qoyun otlar, quzu mələr,
Gecələr sıx duman gələr,
Baxa bilməz aya, dağlar!
Qucağından Məmməd getdi,
O doymadı, həsrət getdi.
O getməzdi, əlbət getdi
Bu şöhrəti yaya, dağlar!

1956

***Araz M. Dağlar // Seçilmiş əsərləri. – Bakı: Təhsil, 2014. – S. 53.***